# Qəbələ “Qış nağılı” söyləyir



**Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ilk dəfə keçirilən “Qış nağılı” Beynəlxalq Musiqi Festivalı Qəbələ şəhərində uğurla davam edir.**

Festival çərçivəsində Heydər Əliyev Konqres Mərkəzində Bakı Kamera Orkestrinin konserti olub. Orkestrin bədii rəhbəri Bakı Musiqi Akademiyasının rektoru, professor, Xalq artisti Fərhad Bədəlbəyli, dirijoru Əməkdar artist Fuad İbrahimov, direktoru Xalq artisti Yeganə Axundovadır.

Tərkibinə beynəlxalq müsabiqə laureatları və istedadlı ifaçıların daxil olduğu orkestrin ifasında A.Vivaldinin “İlin fəsilləri” silsiləsindən “Qış”, P.İ.Çaykovskinin Simli alətlər üçün serenadasından “Vals” və “Final”, A.Piatsollanın “Buenos-Ayresdə ilin fəsilləri” silsiləsindən “Yaz”, Niyazinin “Arzu”, S.İbrahimovanın “Piano və orkestr üçün 4 nömrəli konsert”, N.Kapustinin “Piano və orkestr üçün 2 nömrəli konsert”, F.Əmirovun “Azərbaycan elləri”, F.Bədəlbəylinin “Dəniz” əsərləri səsləndirilib. Solistlər Murad Adıgözəlzadə (piano), Yeganə Axundova (piano), Nəzrin Aslanlı (skripka), Nigar Cəfərovadır (soprano).

*XQ*